**TİPOLOGİYA 1. Hüquqi şəxslər ilə fiziki şəxslər arasında notarial qaydada bağlanmış borc (və ya tapşırıq) müqavilələri əsasında hüquqi şəxslərə məxsus vəsaitlərin nağdlaşdırılması**

Öhdəlik daşıyan şəxsdən daxil olmuş şübhəli əməliyyatlara dair məlumatların ətraflı təhlili nəticəsində hüquqi şəxslərin nümayəndələri ilə fiziki şəxs arasında notarial qaydada bağlanılmış borc (və ya tapşırıq) müqavilələrindən və çoxsaylı şirkətlər dairəsindən (əsasən şel əlamətinə malik şirkətlərdən) istifadə olunmaqla, külli miqdarda pul vəsaitlərinin nağdlaşdırılmasının yeni sxemi müəyyən olunmuşdur.

"HŞ1" və "HŞ2" şirkətlərinin qanuni təmsilçiləri (nümayəndələri) olan "S" və "H" şəxsləri ilə həmin şirkətlərdə müxtəlif vəzifələr tutan "A" şəxsi arasında "X saylı" notariusda təsdiqlənməklə heç bir faiz və təminat şərtləri olmayan onlarla uydurma borc (və ya tapşırıq) müqaviləsinin bağlanması əsasında müvafiq şirkətlərin eyni bir "AB" bankındakı hesablarından "X saylı" notariusun "AB" bankındakı hesabına milyonlarla manat pul vəsaiti köçürülmüşdür.

Daha sonra "X saylı" notariusun "AB" bankına göndərdiyi yazılı təqdimat əsasında "A" şəxsi "X saylı" notariusun "AB" bankındakı hesabından hüquqi şəxslərdən daxil olmuş müvafiq vəsaiti nağdlaşdırmağa nail olmuşdur.

Qeyd olunan borc (və ya tapşırıq) müqavilələri əsasında "A" şəxsi tərəfindən nağdlaşdırılmış pul vəsaitlərinin mənbəyinə dair aparılmış ətraflı təhlil nəticəsində müvafiq pul vəsaitlərinin şel əlamətlərinə malik 10-a yaxın şirkət tərəfindən köçürüldüyü məlum olmuşdur. Öz növbəsində, qeyd olunan şel şirkətlərin vəsaitlərinin mənbəyinə dair bank hesablarının təhlili zamanı onlara da müvafiq olaraq digər 10-a yaxın şirkətdən (o cümlədən, şel əlamətlərinə malik şirkətlərdən) köçürmələrin edildiyi müəyyən olunmuşdur. İkinci qrup şirkətlərə isə digər çoxsaylı üçüncü qrup şirkətlərdən, o cümlədən "DŞ" dövlət şirkətindən pul vəsaitinin daxil olduğu məlum olmuşdur. Araşdırma nəticəsində qeyd olunan qrup şirkətlərin rəhbərləri, imza səlahiyyətli şəxsləri və təsisçilərinin eyni şəxslər dairəsinin olması baxımından həmin şirkətlərin əlaqəliliyi və nəticədə eyni benefisiara məxsus olması aşkar edilmişdir. Bundan əlavə, borc müqavilələrinin şəxsin profil məlumatları ilə müqayisəli təhlilinə əsasən, "A" şəxsinə verilmiş borc məbləğinin onun gəlirlərinə mütənasib olmadığı müəyyən olunmuşdur.

Kommersiya qurumlarının dövlət reyestrindən əldə olunmuş məlumat əsasında birinci qrup şirkətlərin böyük əksəriyyətinin müqavilə tarixinə yaxın tarixdə təsis olunduqları, eləcə də dövlət satınalmalarına dair elektron məlumat bazasından əldə olunmuş məlumatın təhlili əsasında qeyd olunan üçüncü qrup şirkətlərdən 2-nin ümumilikdə yüzdən çox dövlət satınalma müsabiqəsinin qalibləri olduqları müəyyən edilmişdir.

2-ci qrup şel şirkətlərin hesab çıxarışlarının təhlilinə əsasən, notariusun "AB" bankındakı hesabından aparılmış nağdlaşdırma əməliyyatlarından təqribən 1 ay əvvəl "A" şəxsi tərəfindən müvafiq şirkətlərdən birinin hesabına milyonlarla manat məbləğində pul vəsaitini nağd şəkildə mədaxil etdiyi məlum olmuşdur. Mədaxil olunan vəsaitlərin böyük

hissəsi daha sonra müxtəlif malların alışı üçün avans ödənişi təyinatı ilə iki xarici ölkəyə məxsus şirkətlərin bank hesablarına köçürülmüşdür.

Həmçinin araşdırma nəticəsində dövlət müəssisələrindən müvafiq şirkətlərə daxil olan vəsaitlərin eyni və ya yaxın tarixlər ərzində digər əlaqəli şel tipli şirkətlərə (bunlardan bir çoxunun dövlət büdcəsinə iri məbləğdə vergi borcları mövcuddur) köçürüldüyü və qısa zaman ərzində notariat ofisinin depozit hesabı vasitəsilə nağdlaşdırıldığı müəyyən olunmuşdur.

Borc vəsaitlərinin ilkin mənbəyinin dövlət satınalma müsabiqələrinin qalibi olan şirkətlərlə əlaqəli olması faktının aşkar edilməsi nağdlaşdırılaraq mənimsənilən pul vəsaitinin dövlət büdcəsinə məxsus vəsaitlər olduğunu ortaya çıxarmışdır.

**İstifadə olunmuş mexanizmlər**

- notarius;
- kredit təşkilatı;
- dövlət şirkəti;
- şel şirkətlər.

**İstifadə olunmuş alətlər**

- nağd mədaxillər;
- bank köçürmələri;
- borc və ya tapşırıq müqavilələri.

**İstifadə olunmuş üsullar**

- yeni təsis edilmiş şel şirkətlər vasitəsilə köçürmələrin edilməsi ilə mənimsənilən büdcə vəsaitinin izinin itirilməsi;
- nominal şəxslərdən istifadə etməklə uydurma borc və ya tapşırıq müqavilələrinin bağlanması ilə büdcə vəsaitlərinin asan mənimsənilməsi üçün əsasların yaradılması.

**İndikatorlar**

- hüquqi şəxslərin nümayəndələri ilə fiziki şəxs arasında notarial qaydada bağlanılmış irimərləğli borc (və ya tapşırıq) müqavilələri üzrə heç bir faiz və təminatın nəzərdə tutulmaması ilə onların uydurma xarakterə malik olması;
- borc alan fiziki şəxsin əldə etdiyi borc məbləğinn onun gəlirlərinə mütənasib olmaması;
- borc alan şəxs tərəfindən şirkətlərin birinin bank hesabına borc (və ya tapşırıq) müqavilələri və nağdlaşdırma əməliyyatlarının tarixlərindən təqribən bir ay öncə nağd pul vəsaitlərinin mədaxil edilməsi;
- borc alan fiziki şəxsin borc verən hüquqi şəxslərdə imza səlahiyyətinə malik icraçı direktor və mal təchizatçısı vəzifələrində çalışması;
- dövlət vəsaitlərinin böyük hissəsinin dolayısı ilə riskli vergi ödəyicisi olan və ümumiyyətlə işçisi olmayan şirkətlərə köçürülərək nağdlaşdırılması;

- kredit müqavilələrini borc verən hüquqi şəxslərin adından imzalayan şəxslərin müvafiq hüquqi şəxslərdə sıravi işçi vəzifələrində olması;
- tapşırıq müqavilələrində nəzərdə tutulmuş iş və ya xidmətlərin sahibkarlıq fəaliyyətinin predmeti olmasına baxmayaraq, vəkalət alan şəxslərin fərdi sahibkar qismində vergi ödəyicisi kimi qeydiyyata alınmaması;
- fiziki şəxs tərəfindən nağdlaşdırmaların həyata keçirilməsi;
- şirkətlərin böyük əksəriyyətinin müqavilə tarixinə yaxın tarixdə təsis olunması;
- dövlət müəssisələrindən şirkətlərə daxil olan vəsaitlərin əsasən eyni tarixlər ərzində digər əlaqəli şel tipli şirkətlərə köçürülməsi və qısa zaman ərzində notariat ofisinin depozit hesabı vasitəsilə nağdlaşdırılması;
- əlaqəli eyni iki şirkətin çoxsaylı satınalma müsabiqələrinin qalibi olması.

**Hüquqi şəxslər ilə fiziki şəxs arasında notarial qaydada bağlanılmış borc (və ya tapşırıq) müqavilələrindən və çoxsaylı şirkətlər dairəsindən (əsasən şel əlamətinə malik şirkətlərdən) istifadə olunmaqla külli miqdarda pul vəsaitlərinin nağdlaşdırılması sxemi**

